**Aşıq Ağalar**

# *Söz mənimkidir*

**Bakı – 2014**

*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Elmi Şurasının 16 aprel 2014-cü il tarixli 4 №li Protokoluna əsasən nəşr edilir.*

**Redaktor: Yaqut Bahadurqızı**
*filologiya üzrə fəlsəfə doktoru*

Aşıq Ağalar. “Söz mənimkidir”.
Bakı, 2014. 96 səh.

*Təqdim edilən bu kitabda Şirvan aşıq mühitinin görkəmli nümayəndəsi ustad aşıq Ağalar Mikayılovun dərc olunmamış şeirlərindən bir qisimi toplanmışdır.*

*Şirvan aşıq havaları üstündə oxunan bu şeir kitabından aşıq sənətinin tədqiqatçıları və bu sənətin həvəskarları faydalana bilərlər.*

# ÖN SÖZ

**T**əbiətin oyanan çağında, havadan baharın asılıb qaldığı vədəsində, səhərin gözü açılar-açılmaz qara zurnanın şirin, şaqraq səsi Qəşəd kəndini başına götürdü. Kalvalı Əli kişinin zurnasının səsiydi bu. “Cəngi” havasına oyanan kənd əhli səs gələn səmtə - Mirzə Bilalın dahrasına axışdı. O Mirzə Bilalın ki, Qəşəddə, cəmi Şirvanda çoxlarının evində, ocağında çalıb-çağırmış, toy-düyününü şadlandırmışdı. O Mirzə Bilalın ki, ilk oğul övladı dünyaya gəlmişdi və çiyin yoldaşı, sənət dostu Kalvalı Əli Kərimovun gözaydınlığı, muştuluğu, əhdi idi bu səhər kəndi başına yığan “Cəngi”.

Ad axtarmadılar bu uşağa, zatən adı doğulmamışdan qoyulmuşdu. Aşıq Bilal da, Əli Kərimov da əhd etmişdilər ki, hər ikisi yolunu gözlədikləri övladları oğlan doğularsa, həyatdan nakam getmiş sənət dostları xanəndə Ağaların adını qoysunlar uşaqlara. Beləcə, 1913-cü ilin yazında bir Dədə sənətkarın ocağında sənətə, sənətkara

hörmət, məhəbbət, ehtiram, etibar naminə Ağalar adını yaşadan bir oğul da doğuldu.

Böyüdü, sazla, sözlə havacatla. Əhli-hal arasında hal əhli kimi böyüdü. Nəslinə, şəcərəsinə, irsinə sədaqət və ehtiramla böyüdü. Şirvan aşıq sənətinə və bu sənətin sultanı Aşıq Mirzə Bilalın adına layiq – aşıq Ağalar kimi yaşadı, yaratdı, tanındı.

Hərçənd, söz Şirvan aşığından düşürsə, Şirvan aşıq mühiti və onun özəllikləri barədə qısaca xatırlatma vermək borcumdur.

Şirvan torpağı nağılla, dastanla, bayatı, atalar sözləri, lətifələrlə zəngindir. Bu folklorun ən geniş qolu, məxsusi yeri, çəkisi, özünəməxsus xüsusiyyətləri ilə seçilən Şirvan aşıqlığıdır. Şirvan aşıqlığı zəngin bir məktəbdir. Bu məktəbin kökü xalq yaradıcılığına bağlıdır.

Şirvan folklorunun öyrənilməsi və nəşr işləri ilə ardıcıl məşğul olan f.e. doktoru, professor S.Qəniyev göstərmişdir ki, Şirvan aşıq mühitinin regional özünəməxsusluq kəsb etməsində Şirvanşahlar dövlətinin həlledici rolu olmuş, bu dövlətin sərhədləri daxilində mövcud olan Şirvan folklor mühitinin, Şirvan mədəni həyatının tərkib hissəsi, onun bir parçası olmaqla yerli mədəni mühitin başqa layları ilə qarşılıqlı münasibətlərdə olmuşdur. (S.Qəniyev “Şirvan folklor mühiti”, Bakı, 1999)

Professor M.Qasımlı özünün “Aşıq sənəti” (Bakı, 1996) adlı monoqrafiyasında aşıq sənətinin genetik qaynaqları, tarixi yaranışı, təşəkkülü məsələlərini diqqətlə

araşdırmışdır. Oxu və çalğı üslubunda xanəndə tərzini qabarıq görüntülərlə əks etdirdiyinə görə, Şirvan mühitinin musiqi repertuarı ənənələri aşıq repertuarından xeyli fərqlənir. Bununla belə, Şirvan aşıqlarının musiqi repertuarında Azərbaycan aşıq sənətinə məxsus olan klassik saz havaları da mühüm yer tutur.

Şirvan aşıqlarının XV-XVIII əsrlər üzrə aşıq Dostu Şirvani, aşıq Saleh, aşıq Rüstəm, aşıq İbad, XIX və XX əsrin I yarısı üzrə Baba Rəxsan, aşıq Mürsəl Babaş oğlu, aşıq Soltan, aşıq Qənimət, aşıq Cəlal, aşıq Daşdəmir, aşıq Zeynalabdin, aşıq Bilal, aşıq Şamil, aşıq Abbas, XX əsrin II yarısından sonrakı aşıq Pirməmməd, aşıq Ağalar, aşıq Əhməd, aşıq Şakir, aşıq Qurbanxan, aşıq Pənah, aşıq Bəylər, aşıq Məmmədağa, aşıq Barat, aşıq Xanmusa, aşıq Xanış, aşıq Şərbət, aşıq Rza, aşıq Mahmud, aşıq Yanvar və başqalarının sənət irsi müəyyən qədər öyrənilmişdir və müasir aşıqlarımız üçün örnək, məktəbdir. Bu sənətkarların əldə olunan şeirlərində yaşadıqları dövrün abhavası, yurdumuzun füsunkar gözəllikləri öz poetik ifadəsini tapa bilmişdir.

Keçən əsrin əvvəllərindən başlayaraq, Şirvan aşıq mühitinin zirvəsində taxt-tac qurmuş aşıq Bilal ənənəsi mühitin bir çox ustad sənətkarı tərəfindən təbliğ olunmuş, qorunmuş və zənginləşmişdir. Aşıq Bilal öz ədəbi mövqeyinə görə aşıq poeziyasının ana xəttində özünə elə bir mövqe seçib dayanmışdır ki, ondan sonra yetişən Şirvan sənətkarları Dədə Bilalın təsirindən kənarda qala

bilməmişlər. Handa ki, bu sənətkar Dədə Bilalın öz ocağında yetişə, öz varisi, öz canı, öz qanı ola...

Beləcə, aşıq Bilaldan öyüd aldı, dərs aldı Ağalar. Elin ağsaqqalı (gənc yaşından), baş biləni, mirzəsi, şairi, aşığı, nə xoşbəxt ki, onun atasıydı, böyüyüydü. Ruzini el-oba tökürdü başlarından. Məclislərdə yerləri yuxarı başdaydı. Günləri ah-zardan uzaq, toy-düyünlə, çal-çağırla keçirdi. Bəxtəvər idilər, bədnəzərə gəldilər, bəd dillərə düşdülər...

Qara eynəklilər, qara maşınlarda bir gün dayandı doqqazlarında... Millət vəkili, professor Rafael Hüseynov demişkən:

Haqq aşığını öldürdülər.

Haqqın işığını söndürdülər.

Günahı o idi ki, aşıqdı.

Günahı o idi ki, el-oba onu sevirdi.

Günahı o idi ki, bircə kəlmə “gəl” desəydi, camaat ardınca düşərdi...

Qara günləri başladı Ağaların. Xoşbəxtliyi kimi təhsili də, aşıqlığı da yarımçıq qaldı. Hər şeylərini aldılar əllərindən, ancaq, qürurlarını itirmədilər. “Xalq düşməninin” oğlanlarının üçü də faşizmə qarşı döyüşdülər. Kişi kimi döyüşdülər. “Düşmən” damğasını, böhtanı, ləkəni sildilər qanları ilə, yaraları ilə adlarından...

Boğazından aldığı yara ilə döndü müharibədən Ağalar. Sanki namərd faşist bu boğazın, bu səsin onunçün, el-obası üçün gərəkli olduğunu bilərəkdən qəsd etmişdi ona. Bir müddət məyus oldu. Əlinə saz almağa, oxumağa,

aşıb-daşan sənət eşqini hayqırmağa qorxdu. Ancaq, qohum-qardaş, dost-tanış, bu soyun idiminə bələd olan hər kəs: - oxu, - dedi, ürək-dirək verdi ona. Bu bulaq qurumamalıdı, bu çeşmə korşalmamalıdı.

Oxudu. Məclislərə çıxdı. Boy-buxunu da, şəsti də, məclisdə meydangirliyi də eyzən Bilal idi. Şirin-şirin nağıl, dastan söyləməsi, deyişməsi də bənzəyirdi, səsi də... ancaq bir az pəsdən, bir az bəm. Yarası imkan vermirdi.

Qara günləri arxada qoyub qalxmağı bacardı Ağalar. Böyük oğul ailəni başına yığdı, dolandırdı. Atası kimi, sazı da əlinə alıb çaldı, çağırdı, yazdı, yaratdı atası kimi...

***Görən neyləmişdim çərxi-fələyə,***
***Gəlmədi axırım, əzəlim mənim.***
***Bir kəsin bağına daş atmamışam,***
***Anadan pak olub əməlim mənim...***

***Yeddi arxam ilə ucadır adım,***
***Xəlilli nəslidir əslim, soyadım,***
***Atam Bilal olub mənim ustadım,***
***Ağalar, qoy bilsin hər elim mənim.***

Bəli, beləcə aşıq Ağalar artıq 50-ci illərdə böyük sənətkarlar yetişdirən Şirvan aşıq mühitinin gerçək ustadına çevrildi. 300-dən çox şeiri, 4 dastan-rəvayəti və qəlb titrədən avazı ilə yaddaşlara hopdu.

Yaradıcılığını nəzərdən keçirərkən klassik aşıq poeziyasının ənənələrinə sadiq qalan aşıq Ağaların şeirlərinin janr və üslub əlvanlığı diqqət çəkir. Bu baxımdan onun gəraylı və qoşmaları daha səciyyəvidir. Ənənəni saxlayan xalq aşığı bir çox hallarda özü də epitet yaratmaqda söz sənətinə yeniliklər gətirir.

***Nə gözəlsən, ay Gülbədən,***
***Sanki tavuz çəkib gərdən.***
***Yaxandakı qızılgülnən***
***Bəzə bu gülşəni, gözəl.***

Və ya:

***Zənəxdan üstündə, bir qoşa xallı***
***Zülfü əmbər çilər, dodağı ballı.***
***Tovuz tamaşalı, sona misallı***
***Dünya şöhrətinə uyan olmasın.***

Aşığın yaradıcılıq məkanı geniş olsa da, coşqun ilhamı üçün əsl dayaq nöqtəsi doğma yurdu, doğma torpağıdır.

***Bəzənmişdir başdan-başa elləri,***
***Şuşanın dağları, Gəncə gölləri,***
***Kürün kənarında, Muğan çölləri,***
***Ceyranlı düzləri Mildən şirindi.***

***Şirvan mahalının tər bənövşəsi***
***Gələndə eynimə, artır nəşəsi.***
***Dağlara, daşlara düşəndə səsi,***
***Kəkliyin nəğməsi baldan şirindi.***

Aşıq dəfələrlə yön tutduğu dağlara, çaylara, çöllərə, düzlərə yeni bir gözlə, yeni bir baxışla yanaşır, gördüyü gözəllikləri ayrı şövqlə tərənnüm edir.

Aşıq Ağalar şifahi xalq ədəbiyyatına, folklorumuza bağlı aşıqdır. Onun şeirlərində folklorun ruhu duyulur.

***Dağ başında, qar pis olmaz,***
***Bağban dərən bar pis olmaz***
***Könül sevən yar pis olmaz***
***Könül ilqar verəndə gəl***
***Ürəyimi biləndə gəl.***

Bu qoşmada xalq danışıq dilinin ətri, ruhu var. “Dağ başında qar”, “Bağban dərən bar”, “Könül sevən yar” pis olmaz kimi ifadələri el dilindən qoparan aşıq, şeirin fikir yükünü zənginləşdirir.

Atalar sözü və zərb-məsəlləri bəzən aşıq ustalıqla dəyişdirir, onlara təzə poetik ruh verir:

***Bir söz deyib keçmişlərdə atalar,***
***Atı axsaq alsan, sənə ar olar.***

Və ya:

***Çox görmüşəm, doğru yolun azanı***
***Neçə həyat, neçə karvan pozanı,***
***Özgəsinə nahaqq quyu qazanı,***
***Özü düşüb boğulan da görmüşəm.***

O, "Özgəsinə quyu qazan, özü düşər" müdrik kəlamının zahiri görkəmini azacıq dəyişməklə şerə daxili dərinlik və zənginlik gətirmişdir.

Aşıq Ağalar yaşadığı ağır günlərə baxmayaraq, həmişə nikbinliyini qoruyub saxlamış, bir gözü gülüb, bir gözü ağlayaraq xalqına, vətəninə nəğmələr qoşmuş, onu tərənnüm etməkdən nə yorulmuş, nə də doymuşdur.

***Dünyanın üzünə düşəndən bəri,***
***Yüklənib üstümə qəmin ləşkəri.***
***Mənə dəyən acı-acı sözləri***
***Bir cüt öküz nədir, kəl çəkə biməz.***

Göründüyü kimi, represiya, yurd-yuvasından ayrılmaq, müharibə, aclıq və onlardan da betər "xalq düşməninin oğlu" damğası, tənəli söz onu kədərləndirsə də ruhdan düşmür, nikbindir, mübarizdir, inamlıdır.

***İndi baxıb ellər bizdən dərs alır,***
***Xalqımız hər gündə min zəfər çalır.***
***Əməklə, cürətlə insan ucalır,***
***Azad vətənimdə, azad elimdə.***

Aşıq Ağaların ömrünün son çağında, xəstə yatağında yazdığı şeirlər diqqətimi çəkdi. Bu yaşda, bu halda sevgi ilə, məhəbbətlə bağlı gənclik ruhunda yazılmış şeirlər oxucusunu, dinləyicisini təəccübləndirə bilər.

Çünki bu şeirlərdə hissiz, həyəcansız bir misra belə yoxdur. İnsan nə qədər ki, sağdı onun eşqi, məhəbbəti, sevgisi yaşayır.

***Badə içsən gözəl yarın əlindən***
***Kim can verər, əcəl gəlsə qəfildən,***
***Gözəllər gözəli, səni görəndən,***
***Könlüm cənnət kimi diyara düşdü.***

Aşıq Ağalar klassik şeirimizin xalq içində ən çox rəğbət qazanmış nümunəsi olan qəzəl janrında da qələmini sınamışdır. Onun qəzəllərində zahirən köhnə şeir üslubu nəzərə çarpsa da, məna və məzmun müasirdir, zamanla səsləşir.

***Güldən təzədir əndamının mehri-səfası,***
***Oldu neçə min aşıq olan hüsnünə qurban.***

***Yazdı Ağalar şəninə min dürlü qəzəllər,***
***Ellər səni yad eyləyəcək şadi-xuraman.***

Və ya:

***Al buxaqda olan, qönçə gülün renginə bir bax,***
***Nə zimistanda bitər, nə də gülüstanda, gülüm.***
***Bu güzəlliklərüvün başqa əlamətləri var,***
***Bunu bir mən demirəm, söylənir hər yanda, gülüm...***

Bu misralardakı ifadə tərzi, gözəlin vəsfi danışıq dili qədər sadə, canlı, təbii, eyni zamanda, bədii təsvirə malikdir.

Xalq şeirinin əksər formalarında yazıb-yaradan sənətkarın xeyli sayda qoşma, gəraylı, təcnis, deyişmə, qəzəl, bayatı, müxəmməsi vardır. Həmin şeirlərin bir çoxu toylarda, şənliklərdə oxunmaqla yanaşı müxtəlif mətbu orqanlarda, almanax və aşıqlara həsr olunan kitablarda çap olunmuşdur.

Rafael Hüseynov müxtəlif illərdə Azərbaycan Milli radiosunun "Axşam görüşləri" proqramında Aşıq Ağalar Mikayılovun həm öz həyat və yaradıcılıq yolu, həm atası Mirzə Bilal, həm də digər saz ustadları haqqında xatirələri lentə alaraq tarix üçün əbədiləşdirmişdir.

Eyni zamanda, aşıq Ağaların ömür yolu, yaradıcılığının müxtəlif məziyyətləri professor Ə.Cəfərzadə, professor Qara Namazov, R.Hüseynov, filologiya elmləri namizədi E.Məmmədli və başqalarının məqalələrində təhlil edilmişdir. Jurnalist T.Abdullayevin "Ata və oğullar" kitabında ustad aşıq Mirzə Bilalın və onun övladlarının yaradıcılığından seçmələr oxuculara təqdim

olunmuşdur. Qocaman jurnalist R.Fərəcov "Kürdəmir salnaməsi" və "Şirvannamə" əsərində aşıq Ağaların həyat və yaradıcılığından bəhs etmiş, şeirlərindən nümunələr vermişdir.

Ustad sənətkarın şəcərəsi, həyatı, yaradıcılığını daha dərindən araşdırmaq, təhlil etmək, şeirlərinin bir qismini toplayıb çap etdirmək zəhməti isə Şirvanın cəfakeş alimi professor Seyfəddin Qəniyevin üzərinə düşüb. Onun 2011-ci ildə nəşr etdirdiyi "Şirvanlı Aşıq Ağalar" monoqrafiyası el aşığı haqqında oxuculara müfəssəl bilgi verməklə yanaşı, aşığın şeirlərinin böyük bir qismi, bağladığı dastanlardan biri, eləcə də sənətkar haqqında yazılanlar və xatirələr də dərc olunmuşdur.

Sizə təqdim etdiyimiz bu kitabçada aşıq Ağalar Mikayılovun çap olunmamış şeirlərindən bir qismini toplamışıq. Əminik ki, aşıq poeziyasının bu gözəl nümunələri könlünüzü oxşayacaq.

O, Şamaxı qəzasının Qəşəd kəndində, Mirzə Bilal ocağında göz açdı atalı-analı dünyasına. Kürdəmirdən – ikinci ocağından 75 yaşında köç etdi əbədi dünyasına. 9 övlad, 32 nəvə, soyunu davam etdirəcək nəticələr və bir də söz xəzinəsini miras qoydu övladlarına, el-obasına...

...Sizə bir söz deyim. Bu nəsildə, şəcərədə aşıq Ağalarla bahəm rəhmətlik qardaşı Ağasəlim müəllim, yaşı 90-ı ötmüş Şəfi kişi də şeir yazıb, saz çalıb, oxuyublar və bu qardaşların övladlarının hansını dindirsən şeirlə cavab

verərlər. Hamısının təbi, səsi, avazı, istedadı, başlıcası isə sənətə, saza-sözə sevgisi, həvəsi var. Həkim, müəllim, ticarətçi, əczaçı, sürücü, neftçi, kitabxanaçı... Müxtəlif peşə sahibi olan bu nəslin toplandığı yer şenlikdi. Və bu şenlikdən saz səsi, tar səsi, aşıq havacatları muğam sədası gəlir. Şeir, söz, sənət havası duyulur. Çünki, bu ocaq sənət məbədidir. Bu ocaqda, bu şenlikdə Mirzə Bilalın ruhu gəzir.

**Yaqut Bahadurqızı,**
*filologiya üzrə fəlsəfə doktoru*

# *GƏRAYLILAR*

## Belə gəldi

Oturmuşdum çeşmə üstə
Gördüm bir qız belə gəldi.
Mən istədim dindirməyə,
Dodaq qaçdı, dilə gəldi.

Dedim: - Ay qız, nə gözəlsən?
Dedi: - Dağdan gəlmişəm mən.
Dedim: - Hərdən bizə gəlsən
Döndü, gülə-gülə gəldi.

Bürünmüşdü al-əlvana,
Məni qoydu yana-yana.
Dərdimi deməmiş ona,
Özü bilə-bilə gəldi.

## Gözlərin

İraq olsun bəd nəzərdən,
Gələr zavala gözlərin.
Qələm qaş altında hərdən,
Qan eylər ala gözlərin.

Camalını hər kəs görsə
Düşər məntək dərdə-sərə
Qorxuram məni öldürə
Dala xəyala gözlərin.

Gül camalı bir də görəm,
Zülfün ucun tutub hörəm.
Qorxuram ki, mən can verəm,
Dola piyalə gözlərin.

Ağalaram, özüm kimi,
Salma yerə sözüm kimi.
Sən ağlama gözüm kimi
Yetər vüsala gözlərin.

## Baxan Gülgəz

Məni candan usandırdın,
Məlul-müşgül baxan Gülgəz.
Hicran oduna yandırdın,
Şimşək olub çaxan Gülgəz,
Məlul-müşgül baxan Gülgəz.

Qara gözlü, boyu bəstə
Sən rəhm qıl mən şikəstə
Gəl qədəm qoy sinəm üstə,
Qızıl şana taxan Gülgəz,
Məlul-müşgül baxan Gülgəz.

Ağalar, şən keçir dövran,
Çiçəklidir tamam hər yan.
Qədəm qoy, gəl bizə mehman
Könül evin yıxan Gülgəz,
Məlul-müşgül baxan Gülgəz.

## Naza qoydu

Bir söz dedim o gözələ,
Özün yaman naza qoydu.
Gəl mənə mehman ol, dedim,
Yalan – gerçək yaza qoydu.

Mən ağladım öz halıma,
O, baxmadı fəryadıma.
Dedim, gəl yetiş dadıma,
Cəza üstən cəza qoydu.

Çox yalvardım dönə-dönə
O nainsaf, o dinsizə.
O, salmazdı yaman günə,
Billəm salan qəza oldu.

Zay eylədi əməyimi,
Eşitmədi diləyimi.
Qopardıb lap ürəyimi,
Elə bildim, közə qoydu.

Ağalaram var iqbalım,
Nə bir dərdim, nə məlalım.
Dedim: qoy bir busə alım,
Əlin çəkib, gözə qoydu.

## Gərəkdir

Sən nadansan, bu meydanda
Mənə əhli-hal gərəkdir.
Mən də Zal oğlu Rüstəməm
Qarşımda sal-sal gərəkdir.

Baş qoşmaram naqqalara,
Cərçi-mərçi baqqallara,
Tülkülərə, çaqqallara,
Gizlənməyə kol gərəkdir.

Hırıldayıb lovğa-lovğa,
Nə düşmüsən əl-ayağa.
Söz batmayan qanmazlara
Qandırmağa qol gərəkdir.

## Gözəl

Nə baxırsan məlul-məlul,
Bağçamızda duran gözəl.
Gəl yaxına, həmdəmim ol,
Ürəyimdən vuran gözəl.

Qızıl gülləri biçəndə,
Nərgiz, reyhanı seçəndə,
Məhəbbətdən söz açanda,
Sən qarşıma çıx, ay gözəl.

Dağlarda lalə üzəndə,
Tər buxağa gül düzəndə,
Ağalarla sən gəzəndə,
Geyin, keçin, daran gözəl.

## Sevdasına

Bir ala gözlü yar salıb,
Məni Məcnun sevdasına.
Vurğun oldum görən kimi,
Günəş üzlü Leylasına.

Durub pusqu bərəsində,
Əğyar yarın çevrəsində.
Yandım eşqin kürrəsində,
Əlac qılmaz çarəsinə.

Arzum budur ki, kam alam,
Sənə bir gün mehman olam.
Bihuş olub, ölüb qalam,
Sinənin yar arasında.

Ağalaram, ey mehriban,
Vəslinə yazmışam dastan.
Yarnan qucaqlaşıb yaman,
Batam eşqin dəryasına.

## Gələn gözəl

Bizə suya gələn gözəl,
Yoluna qurban mən olum.
Bircə danış şirin-şirin,
Dilinə qurban mən olum.

Məni candan usandırdın,
Cismimi oda yandırdın,
El içində utandırdın,
Telinə qurban mən olum.

Cəfa verdin mənə, azdır,
Dərya qəlbim bulanmazdır.
Demə, bu nə utanmazdır?
Xalına qurban mən olum.

Gəl, bir sən ol, bir də özüm
Tək bu dərdə necə dözüm?
Aç zülfünü, görsün gözüm,
Telinə qurban mən olum.

Süzgün baxıb, gülə-gülə,
Ağaları gətdin dilə.
Salma məni eldən-elə,
Elinə qurban mən olum.

## Göz görəndə

Göz görəndə, könül sevər,
Deyirlər ki, günahkaram.
Salır dərdə-sərə məni,
Özüm də ki, sənətkaram.

Günahkardır görən gözüm,
Yoxdur artıq ona sözüm.
Necə edim, necə dözüm,
Əlindən lap giriftaram.

Peşman olur, gözəl görə,
Siyah zülfün açıb hörə.
Məcburam ki, gözəllərə
Düşüb dalınca yalvaram.

Çəkirəm əlindən aman,
Gəl eyləmə məni peşman.
Yenə yeri düşən zaman,
Deyir məgər ki, mən koram?

Ağalaram, gəldim zara,
Alan yox, çəkim bazara.
Dərdindən bəs gedim hara?
Bilsəm əgər, minnətdaram.

## Sata-sata

Nazlı yarım qan eyləyir,
Gəlir qəmzə sata-sata.
Qəlbimi giryan eyləyir,
Gülür qəmzə sata-sata.

Yada salır öz yarını,
O, pozmayır ilqarını.
Dindirib qəlbin tarını,
Çalır qəmzə sata-sata.

Qaldırır hərdən başını
Oynadır qələm qaşını,
Ağaların göz yaşını,
Silir qəmzə sata-sata.

**Gərəkdir**

İgid meydanda hərlənər,
Vurram başın diyirlənər.
Aciz adam gileylənər,
Tullamağa sel gərəkdir.

Aslan görsə qotur pişik,
Tez axtarar dəlmə-deşik.
Kim danışsa düşük-düşük,
Ağzına bir nal gərəkdir.

Sən çevirmə işi ağa,
Səsi çıxar lap uzağa.
Mən dəryayam, sən qurbağa,
Sənə kiçik göl gərəkdir.

Sən sərçəsən, mən bir laçın,
Vurub sındıraram qıçın.
Hələ mənə çatmaq üçün,
Sənə qərinə gərəkdir.

Çox dağlardan mən aşmışam,
Dünya gəzib, dolaşmışam.
Güc eyləmə, ağır daşam,
Qaldırmağa qol gərəkdir.

Qarşında Rüstəm-Zal durub,
Min batmanı o, qaldırıb
Ağalar şən məclis qurub,
Onun dili bal gərəkdir.

## Gözəl

***(gözəlləmə)***

Yar, sənin xumar gözlərin
Andırır ceyranı, gözəl.
Ay üzün, qələm qaşların
Sürməli, məsməli, gözəl.

Mail oldum, qələm qaşa,
Gəl biz gəzək, qoşa-qoşa.
Hüsnün olub toy-tamaşa,
Tutubdur hər yanı, gözəl.

Nə gözəlsən, ay gülbədən,
Sanki, Tavuz çəkib gərdən.
Yaxandakı qızılgülnən,
Bəzə bu gülşəni, gözəl.

Ağalar ayrılmaz dostdan,
Hər gün yazır yeni dastan.
Qoynun cənnət, sinən bostan,
Olaram qurbanı, gözəl.

## Könül quşu

***(gözəlləmə)***

Könül quşu qərar tutar,
Uçmaz yarın yuvasından.
Vurğun olub sevən könül,
Doymaz sevgi cəfasından.

Dolan dağı, dolan, könül!
Məhəbbətlə dolan könül.
Yara mehman olan könül,
Qorxma cövrü-cəfasından.

Namus-arı atmaq olmaz,
Qiymət qoyub satmaq olmaz.
Uzaq durun, duyğusu az,
Namərdlərin ədasından.

## Dözəm gərək

Yardan ayrı düşdü könül,
Ayrılığa dözəm gərək.
Həsrətindən dağı-daşı
Gecə-gündüz gəzəm gərək.

Ayrılanda mənə baxdı,
Viran oldu könül taxtı.
Yazıq canım nisgil vaxtı,
Hicr oduna dözəm gərək.

Qoydu məni yana-yana,
Qəsd eylədi şirin cana.
Məcnun olub biyabana
Düşüb, candan bezəm gərək.

Dağda, daşda, səhralarda,
Can qoymadı Ağalarda.
Deyir düşüb dəryalarda,
Yelkən olub, üzəm gərək.

## Daha

Yara deyin inciməsin,
Onunla gəzmərəm daha.
Min gül açsa da bağında,
Bir gülün üzmərəm daha.

Məni yaman günə salıb,
Könül dərlə, qəmlə dolub.
Onunla qol-boyun olub,
Qəlbimi üzmərəm daha.

Xəbər verin anasına,
Gedib desin balasına,
Bivəfanın cəfasına,
Bilsin ki, dözmərəm daha.

Ağaların qanı coşub
Qəzəbi həddindən aşıb.
Şəninə min dastan qoşub,
Bir dənə, yazmaram daha.

## Bağ içində

Qoynun cənnət, narın qoşa,
Bədnəzərdən olsun, haşa.
Elə bil verib baş-başa,
Şamamalar tağ içində.

Qəm-qüssə qəlbindən uçub,
Gül üzünə şəfəq saçıb.
Elə bildim qönçə açıb
Qızıl gül yarpaq içində.

Ağalar da gəldi cana,
Bir yaşılbaş, nazlı sona,
Bürünmüşdür əlvan dona,
Qolları qolbaq içində.

## Gəl

Lalə yanaq, boyu bəstə,
Qədəm qoyub sinəm üstə
Gözüm yolda, qulaq səsdə,
İntizarda qalanda gəl,
Min xəyala dolanda gəl.

Dağ başında qar pis olmaz,
Bağban dərən bar pis olmaz,
Könül sevən yar pis olmaz.
Könül ilqar verəndə gəl,
Ürəyimi biləndə gəl.

Günəş yerə nur saçanda
Dağdan duman, çən qaçanda,
Məhəbbətdən söz açanda,
Bahar çiçək açanda gəl,
Ceyran düzə qaçanda gəl.

Könül yanar yağ içində,
Çalın-çarpaz, dağ içində.
Şamamalar tağ içində,
Sarı çiçək açanda gəl,
Günəş şəfəq, saçanda gəl.

Ağalaram, gözüm yaşı,
Sirab edib dağı-daşı,
Sən ağlama, könül quşu.
Kəklik dağa qaçanda gəl,
Daşdan-daşa uçanda gəl.

## Hanı dünya?

Hər kəs sənə qədəm qoydu,
Saydı cənnət səni, dünya.
Allahın haqq peyğəmbəri,
Bəs Məhəmməd hanı, dünya?

Kam almaqda gözün doymaz,
Ağlı olan sənə uymaz,
Sənə bel bağlamaq olmaz,
Bivəfasan, fani dünya.

Çıxdın Fironun felindən,
Allahlıq keçdi könlündən,
Axır ki, aldın əlimdən,
Hər şöhrəti-şanı, dünya.

Nə şah qandın, nə də gəda,
Heç birindən gəlmir səda,
Sən verdin aləmi bada,
Olmayırsan qani, dünya.

Aşıq oldum sinədəftər,
Günlərim hey keçdi hədər.
Ağalar da köçüb gedər,
Gedənləri sanı, dünya.

## Oğul

Məktəbə get, məktəbə,
Qeyrətin olsun, oğul.
Hörmət eylə sənətə,
Qiymətin olsun, oğul.

Getməyəndə məktəbə,
Bil ki, qalarsan dala.
Çatmaq üçün mətləbə,
Bir canını yırğala.

Tənbəl uşaqlar kimi,
Olma dərdə mübtəla.
Oxu, elmini artır,
Sənətin olsun, oğul.

Gərki, uşaqlar hamı
Məktəbə getməkdədir.
Kəsbi-kamal eyləyib
Məqsədə yetməkdədir.

İstəməyirsən hədər
Qəlbinə dolsun kədər,
Elmi oxu müxtəsər
Hörmətin olsun oğul.

# Bayatılar

Mən aşiqəm çəməndə,
Bülbül ötər çəməndə,
Bir mən, bir yar olaydı,
Biz gəzəndə çəməndə.

*

Mən aşiqəm otaqda,
Eyvanda yox, otaqda.
Hər şey hazır olardı,
Yar gələndə otaqda.

*

Mən aşiqəm ay qaçar,
Ulduz qovar, ay qaçar.
Mən yara can deyəndə,
Yarım məndən ay qaçar.

*

Mən aşiqəm yaz məni,
Bahar məni, yaz məni.
Yara əcəl yazanda,
Yar yerinə yaz məni.

## Lay-Lay

Bağ içində gülümsən,
Gülümsən, bülbülümsən.
Deynən, haçan olarsan,
Bəs mənim köməyim sən?

*

Mən aşiqəm gül istər,
Ağıl çaşsa dil itər.
Balam gəzən yerlərə,
Yovşan əksən gül bitər.

*

Dağlar maralıyam mən,
Qəmdən aralıyam mən,
Balalarım yanımda
Demə yaralıyam mən.

*

Şəhərim var, qalam var,
Bizdə haqqi-salam var.
Gör nə xoşbəxt anayam,
Əməksevən balam var.

*

Balam yatar, ağlamaz,
Bağrım başın dağlamaz,
Onun xoşbəxt beşiyi,
Qəm kədəri saxlamaz.

*

Bülbül oxur qəfəsdən,
Könlü düşməz həvəsdən.
Mən balamı tanıram
Yatan zaman nəfəsdən.

*

Bağdan gülü dərəndə,
Sinən üstə sərəndə
Ağalar da qəm yeməz
Oğul toyu görəndə.

# *QOŞMALAR*

## Cavan aşıq

Mənimlə düz dolan, ey cavan aşıq,
Girib bu meydana cəng edərəm mən.
Bir nərə çəkərəm, batar qulağın,
Nəfəsin kirtləşər, tənk edərəm mən.

Açaram qarşında sinə dəftərin,
Sınar qol-qanadın, pozular pərin.
Endirsəm bir zərbə, dolar gözlərin,
Yararam bağrını, süng edərəm mən.

Ağalaram, əbəs yerə söz atma,
Yan-yörövə yaltaqlanıb göz atma.
Tez-tez baxıb, gözlərini bozartma,
Sökərəm cismini, süng edərəm mən.

## Səni

Çox da lovğalanıb qazlı danışma,
Cəhənnəm oduna salaram səni.
Fitnəyə aldanıb qol-qanad açma,
Bir bala çolpa tək yonaran səni.

Mənəmlik eyləyib çıxma qarşıma,
Dar edərəm gen dünyanı başına.
Dadanıb gəlmisən toy bozbaşına,
Çıxarıb məclisdən, qovaram səni.

Mənəm bu meydanda söz deyən aşıq,
Toya bəzək, bayramlara yaraşıq,
Çaşbaş edib salma bizi dolaşıq,
Dərmansız dərdlərə salaram səni.

Quraram mən sənə dəmirdən tələ,
İnan ki, gərdənin keçər çəngələ.
Yazıqsan, sataşma qocaman filə,
Tutaram, xortuma dolaram səni.

## Çəkə bilməz

Bir dərdim var kimə deyim a dostlar,
Bu dərdi mənimlə, el çəkə bilməz.
Cəsədimdən uçar gedər, can quşu
Aylar dolansa da il çəkə bilməz.

Dünyanın üzünə düşəndən bəri
Düşübdür üstümə qəmin ləşkəri,
Mənə dayən acı-acı sözləri,
Bir cüt öküz nədir, kəl çəkə bilməz.

Haqdan gələr hər insana bir qada,
Axırda ömrünü o, verər bada.
O keçən günləri salanda yada,
Görürəm heç birin fil çəkə bilməz.

Bilal oğlu, sən işə sal qələmi,
Yazginən hədisdən, gələndə dəmi.
Nə qədər çox olsa insanın qəmi,
Bu gözəl dünyadan əl çəkə bilməz.

## Ay dostlar

Bir iş məni bezdiribdir, a dostlar
Günbəgün hörmətdən qalıram neyçün?
Mənası yox imiş darıxmağın da,
Möhnəti qəlbimə salıram neyçün?

Nə yox kimi yoxam, nə var kimi var.
Dönüb zəhrimara içdiyim sular.
Nə çöldə, nə evdə tuturam qərar,
Saralıb gül kimi, soluram neyçün?

Bir ayağım evdə, birisi gorda,
İşim baş tutmayır, qalıram darda.
Sözümə baxmayır uşaqlarım da,
Qadasın, bəlasın alıram neyçün?

Deyəsən qələmim kəsərdən qalıb,
Ağalaram, yaman qəlbim qaralıb.
Məgər, əqlim çaşıb, fəhmim azalıb?
Əlimə saz alıb çalıram neyçün?

## Görmüşəm

Mənəm-mənəm deyib at sürənləri,
Çox olub daldada qalan görmüşəm.
Qayda, qanun, ədəb-ərkan bilməyən,
Kəsləri məclisdən qaçan görmüşəm.

Çox görmüşəm, doğru yolun azanı,
Neçə həyat, neçə karvan pozanı.
Özgəsinə nahaqq quyu qazanı,
Özü düşüb, boğulanda görmüşəm.

Qırx il olub zülmün evi dağılan,
Xoşbəxt yaşar indi yeni doğulan,
Fərqi yoxdur, ya qız ola, ya oğlan,
Döyüşlərdə qaçaq aslan görmüşəm.

Mən şahların, sultanların, xanların,
Qan töküb zülümnən ev yıxanların,
Xalqın zəhmətilə yurd quranların,
Yurdunu tarı-mar olan görmüşəm.

Bilal oğlu, ibrət al sən bunlardan,
Vətəninin mərd oğlundan, qızından.
Qüdrətilə neft çıxaran sulardan,
Qurban kimi qoçaq oğlan görmüşəm.

## Olmasın

Hər kəs ki, bəhs edib, gözələm desə,
Kamalında gərək nöqsan olmasın.
Danışanda dürr tökülə dilindən,
Hərcayi danışıb, gülən olmasın.

Zənaxdan üstündə, bir qoşa xallı,
Zülfü ənbər çilər, dodağı ballı,
Tovuz tamaşalı, sona misallı,
Dünya şöhrətinə uyan olmasın.

Məhəbbət elmindən ola bixəbər,
Zülfü düşə qamətilə bərabər.
Qolları qolbağlı, belində kəmər,
Bir kəlmə sözündə yalan olmasın.

Qələm qaş altında gözləri qara,
Xəyanət etməyə əhdə-ilqara.
Bilal oğlu, tez-tez baxıb kənara,
Meylini hər kəsə salan olmasın.

## Qaça bilmədim

Əcəl gəlib qəfil tutdu yaxamdan,
Hey dartdım əlini, aça bilmədim.
Əlləşdim, vuruşdum bu gen dünyada,
Qurtarıb cəngindən qaça bilmədim.

Çox dedilər bu dünyada gözəl var,
Əhdə vəfa qılar, olar düz ilqar.
Gəzib dolanmışam mən diyar-diyar,
Vəfalı bir Nigar seçə bilmədim.

Ağalaram, ayrı düşdüm elimdən,
Bülbül idim, lal olmuşam dilimdən.
Yazdığım şeirlər, özüm əlimnən
Sayıban qədərin bircə bilmədim.

**Başın qurtar**

İnsanın qanmazı, atın kəhkiri,
Malın tənbəlindən qaç, başın qurtar.
Qonşunun pisindən, qoz kölgəsindən,
Azara düşməmiş, köç, başın qurtar.

Nəcib arvad ərin başın ucaldır,
Nanəciblər cavanikən qocaldır.
Yolunu bağlasa qaçaqla quldur,
Malından, pulundan keç, başın qurtar.

Aldanma sən fitnəkarın felinə,
Yara vurma mərd igidin dilinə.
İşdi, düşsən bir sərxoşun əlinə,
Zəhrimar olsa da iç, başın qurtar.

Hər şeydən şirindir insana həyat,
Pisi boşla, yaxşını tut, şəri at.
İstəyirsən başın qalsın salamat?
Dolan hər yerdə dinc, başın qurtar.

Ağalar, səbr eylə, işdə tələsmə,
Bar verən meyvəni dibindən kəsmə.
Heç kəsdən incimə, heç kəsdən küsmə,
Yaxşı-yamanı seç, başını qurtar.

## Olasan gərək

Sevilmək çətindir, sevməksə asan,
Sevginin mənasın biləsən gərək.
Gecəli-gündüzlü eşqin oduna,
Pərvanə oluban yanasan gərək.

Qədrini biləsən saf məhəbbətin,
Salasan qəlbinə eşqin həsrətin.
Bülbül olub, çəkib gülün möhnətin,
Uçub gül üstünə qonasan gərək.

Nə Əsli olasan, nə də ki, Kərəm,
Nə Yusif ol, nə Züleyxa, nə çək qəm
Leylini, Məcnunu demirəm hələm,
Bir sarı sevdalı olasan gərək.

Bilal oğlu köçüb gedər, o, qalmaz
Sevən könül heç vəch ilə qocalmaz.
Dünyada eyibsiz gözəl də olmaz,
Sevgini eyibsiz sanasan gərək.

## Döndərdi

Bir gözəl qəlbimi yaman incitdi,
Zay etdi eşqimi, xara döndərdi.
Nə məni öldürdü, nə də diriltdi,
Nə çarə eylədi, gora döndərdi.

O, saldı qəlbimə möhnəti, qəmi,
Söndü məhəbbətin yanarkən şəmi.
Axanda gözümdən gülün şəbnəmi,
Yandırıb cismimi, qora döndərdi.

Vəfasızdan uzaq dolan dünyada,
İraq olar səndən, kədər, qəm-qada.
Bilal oğlu döndü dağda Fərhada,
Axır qəlbin ahu-zara döndərdi.

## Görmədin

Ay sevgilim, gəzmə məndən aralı,
Yandırdın bülbülü, xarı görmədin.
Sənlə məni üz-göz edib ayıran
Sitəm edib, sitəmkarı görmədin.

Saf qəlbini bircə sənə bağlayan,
Çaylar kimi daşan, sel tək çağlayan,
Sinəsini eşq oduna dağlayan,
Qapındakı vəfadarı görmədin.

Seyrəqubdur fitnə-fəsad yaradan,
Sədaqəti, dəyanəti yox, inan.
Səni məndən, məni səndən ayıran,
Fitnə quran fitnəkarı görmədin.

Bilal oğlu sənə heyran əzəldən,
Odur dastan, şeir, qoşma düzəldən.
İltimasa gəlib sən tək gözəldən,
O xəstənin mərəzini görmədin?

## Nanəcim arvad

Davanı axtarar allah evindən,
Faşistdən betərdi nanəcim arvad.
Cığallıq eyləyib söz də gəzdirər,
Aranı tez qatar nanəcim arvad.

Yaxşı əməl gəlməz onun əlindən,
Qohum-qonşu zara gələr dilindən.
Başın çıxmaz fitnəsindən, felindən
Dörd yana əl atar nanəcim arvad.

Namusun, qeyrətin satar bir pula,
Aldadıb ərini gedər pis yola.
İşdir, əgər cib xərcliyi az ola,
Ev-eşiyin satar, nanəcim arvad.

Malını matah tək hərraca qoyub,
Bazarda səs salıb alan çağırar.
Yanında bir gecə qalan çağırar,
Nanəcim iş tutar, nanəcim arvad.

Dolusunu yeyib, boşunu atar,
Axşamdan yıxılar, astadan yatar.
Dindirsən, o, səni it olub tutar,
Qaş-qabağın çatar, nanəcim arvad.

Bir söz deyib, keçmişlərdə atalar,
Atı axsaq alsan, sənə ar olar.
Bir söz deyim, sən də inan, Ağalar!
Nə ölər, nə itər, nanəcim arvad.

## Biləydin barı

Salam verdim, salamımı almadın,
Dayanıb salamım alaydın barı.
Nə mən xəbər aldım, nə sən soruşdun,
Nə keçdi qəlbimdən, biləydin barı.

Geyəndə tutidən, zibadən-zərdən,
Alırsan ağlımı, huşumu sərdən.
Gəlib küçəmizdən keçəndə hərdən,
Göz ucu baxıban güləydin barı.

Al buxağa ləli-mərcan düzəndə,
Qaşların oynadıb, gözün süzəndə,
Ovçu görmüş maral kimi gəzəndə,
Məni də bir yada salaydın barı.

Dəyişmərəm  yüz gözələ bir telin,
Vətənim vətəndir, elim də elin.
Yaqutdan ləblərin, şəkərdən dilin,
Özün də sevdalı olaydın barı.

Didarın görməklə qan olar könül,
Bu mən, bu sən, bu da boynum, özün bil.
Aşıq Ağaları etmisən zəlil,
Əhdinə bipeyman qılaydın barı.

## Gərəkdir

***(ustadnamə)***

Bir kəs ki, bəhs edib aşığam deyə,
Ustad demiş, pür kamalı gərəkdir.
Dərs alsın o, gərək kamil ustaddan,
Ədəbi-ərkanı, ali gərəkdir.

Saz götürüb, girən zaman meydana,
Baş qoşmaya, hər cayilə, nadana.
Haqq sözü danışa mərdi-mərdana,
Sinə xəzinəsi dolu gərəkdir.

Elə xidmət edən hər kamil ustad,
Çalışar ki, alsın eldən təmiz ad.
Bilal oğlu deyib, ən böyük ustad
Aşıq hər elimdən hali gərəkdir.

## Düşdü

***(gözəlləmə)***

Günlərin birində, bahar çağında,
Güzarım bir səhər çöllərə düşdü.
Muğan düzlərində, Mil qucağında,
Yaşılbaş sonası, göllərə düşdü.

Gözüm qaldı, bağçasında, bağında,
Obasında, oymağında, dağında,
Gecəli-gündüzlü yar sorağında
Al-əlvan geyinmiş ellərə düşdü.

Ağalaram, nə yoruldum, nə yatdım,
Can quşunu, canan ilə oyatdım.
Neçə il saz çalıb, yazıb yaratdım,
Bir dastan bağladım, dillərə düşdü.

## Hərbə-zorba

Ataram sazımı, götürrəm qələm,
Dayanmaz qarşımda o xurşudi cəm.
Dəryayam, ümmanam, keçilməz Niləm,
Salaram palçığa, batırram səni.

Düz otur yerində, sataşma mənə,
Çəkərəm sinəni dağa, düyünə,
Dözülməz bir zərbə endirib sənə,
Tutuban qolundan yıxaram səni.

Aşıq olan ustadına ağ olmaz,
Yüz il qalsa, tikanlıqdan bağ olmaz.
Ağalar coşanda, saxlamaq olmaz,
Çəkib imtahanə, yoxlaram səni.

## Dönübdür

Nazlı yarın gül camalın görəndə,
Gülüb könlüm, gülüstanə dönübdür.
Məhəbbət mülkündə sultan olmuşam,
Tacı – taxtım Süleymanə dönübdür.

O, gözəl vətəndir, bürcü poladdan,
Qorxu bilməz nə alovdan, nə oddan.
Həzi Aslanovu çıxarmaz yaddan,
O, faşizmin qənimimə dönübdür.

Bilal oğlu adın çəkər xalqların,
Şah İsmayıl, Babək, mərd oğulların,
Nizami, Füzuli gövhər kanların,
Odlar Yurdum gülüstana dönübdür.

## Şirindir

Qələm qaş altında piyalə gözlər,
Busələr almağa xaldan şirindi.
Ceyranın kababı, taracın əti,
Hər dərdin dərmanı, baldan şirindi.

Bəzənmişdir başdan-başa elləri,
Şuşanın dağları, Gəncə gölləri.
Kürün kənarında Muğan çölləri,
Ceyranlı düzləri Mildən şirindi.

Şirvan mahalının tər bənövşəsi,
Gələndə eynimə, artır nəşəsi.
Dağlara, daşlara düşəndə səsi,
Kəklıyin nəğməsi, güldən şirindi.

Ağalar gözləyir yolun səhərdən,
Səmtin ayrı saldı, sovuşdu gendən.
Gözəllər gözəli, o mina gərdən,
Bağrıma basmağa güldən şirindir.

## Gözəldi

Bir gözəlin həsrətini çəkirəm,
Qızıl güldən gül əndamı gözəldi.
Əcəl şərbətini versə içərəm,
Doldurub əlində camı gözəldi.

Əlində gül tutub, şadı – xuraman,
Yanağı qırmızı, qəmzəsi al – qan.
Vüsalə yetməyib ayrılan zaman,
Oduna yanmağa dadı gözəldi.

Aya tənə edər günəş camalı,
Yandırdı cismimi ağ üzdə xalı.
Eşqin sevdasından kim olsa halı,
Bilər Ağalara kamil gözəldi.

## Gözəllər

Dağdan duman qaçdı, hər yan göründü,
Seyrə gəldi göy yaylağa gözəllər.
Bəzənsin dərələr, ceyranlı düzlər,
Qədəm bassın şən yaylağa gözəllər.

Dəstə-dəstə yamacları gəzin siz,
Qoyun açıb, qol götürüb süzün siz,
Lalə, nərgiz, bənövşədən üzün siz,
Gəlin çıxın ağ bulağa gözəllər.

Göyün bəzəyidir hər yanan ulduz,
Biri oğlan, biri gəlin, biri qız.
Nə beş deyil, nə on deyil, nə də yüz
Sinəm başın çəkən dağa gözəllər.

Bilal oğlu o dağları dolandı,
Eşqin odu sinəsində qalandı.
Dedi, bəlkə gəldi, işdi, gumandı,
Dəstə ilə bizim bağa gözəllər.

## Gələcək

Ürəkdən sevənlər, dillərə düşüb
Bir şirin nəğməyə, sözə gələcək!
Həmişə dağlarda gəzən marallar,
Bir gün də çəmənə, düzə gələcək.

Cəhd etmə yaxşıya yaman deməyə,
Hazıram yolunda qurban getməyə.
O dil ki, öyrənə yalan deməyə,
İnanma doğruya, düzə gələcək.

Biz sevsək ürəkdən, duysaq ürəkdən,
Eşqin təməlini qoysaq ürəkdən,
Yandırsaq sönməyən çıraq ürəkdən,
Kim deyər eşqimiz gözə gələcək?

Deyirlər, toy günü uzanır bəzən,
Səbrilə yar nazın çəkib dözəsən.
Fikrimi gözümdən oxumasan sən
Ürək dil açacaq, sözə gələcək.

Mehmanı olmuşam çox gözəllərin,
Dəydi dodağıma nazik tellərin.
Söylə, badam gözlüm, xoş qədəmlərin
Bəs nə vaxt buyurub bizə gələcək?

Bilal oğlu səyyahıdır düzlərin,
Deyir yara açıq ürək sözlərin.
Hərdənbir naz ilə gülən gözlərin,
Süzə-süzə bir gün bizə gələcək!

## Yar mənim

Anadan olanda şad doğulmuşam,
İncə sazım, tar-kamanım var mənim,
Könlümü vermişəm bir nazlı yara,
Nə qədər ki, təndə canım var mənim.

Mən aşan dağları Fərhad da aşmaz,
Min dastan yazaram, dilim dolaşmaz,
Məhəbbətim ulduzlara sığışmaz,
Könül adlı asimanım var mənim.

Gərmişəm ey Zahid, mən açıb sinə,
Od düşsün eşqidən könül mülkünə.
Əfsanə cənnətdən söz açma mənə,
Min gül açan gülüstanım var mənim.

Çalxanıb-çalxanıb sel kimi axdım,
Göz açıb dünyaya, hər yana baxdım.
Hər kəsə dost dedim, əlini sıxdım,
Təmiz qəlbim, isti qanım var mənim.

Mən azad aşiqəm, eşqimdir azad,
Söndürməz eşqimi min boran, min bad.
Dağılsa can mülküm, olsa da bərbad,
Əldə qalan on dastanım var mənim.

Mən vətən uğrunda axıtmışam qan,
Faşistin ordusu quduran zaman.
Düşmənə qarşımda vermədim aman,
Həqiqətə çox inamım var mənim.

O, edər insanı qüssədən azad,
Bilal oğlu, al qələmi, yaz-yarat.
Azəri yurdumda xoş keçir həyat,
Gör nə gözəl bir məkanım var mənim.

## Sevgilim

Gecə-gündüz, vaxtı-bivaxt ağlaram,
Səni deyib, yana-yana, sevgilim.
Sinəm başın düyün vurub dağlaram
Naləm çıxıb asimana, sevgilim.

Bu dünyada gözəl olmaz tay sənə,
Günəş verib camalından pay sənə.
Həsəd çəkib günəş, ulduz, ay sənə,
Sən gələndə bu cahana, sevgilim.

Camalın gözəldir qüzey qarından,
Cida düşməz qəlbən sevən yarından.
Gəlməsəydin, bülbül ahu-zarından,
Qonmaz idi gülüstana, sevgilim.

Bilal oğlu deyil səndən bixəbər,
Ölsəm boğar sevgilimi qəm, kədər.
Qəlbim yanar, didələrim qan tökər,
Salar səni nahaqq qana, sevgilim.

## Diyara düşdü

Bağçalar gül açıb, bağban güləndə,
Gözüm bağ içində bir yara düşdü.
İşarə eyləyib halım biləndə,
Könül eşq oduna dübarə düşdü.

Yorğun maral kimi o, mənə baxdı,
Cismimi yandırıb, odlara yaxdı.
Göz yaşımdan ümmanlara sel axdı,
Könlümün naləsi dübara düşdü.

Badə içsəm gözəl yarın əlindən,
Kim can verər, əcəl gəlsə tənindən,
Gözəllər gözəli, səni görəndən
Könlüm bülbül kimi gülzarə düşdü.

Can verəndə yarım gəlsə ağlaram,
Eşq mülkümü viran edib bağlaram.
Bilal oğlu deyir, axan çaylaram,
Yolum Vətən kimi diyara düşdü.

## Məhəbbətin dayağı

Üzün görcək xəcalətdən dönübdür
Qızıl qana qızıl gülün yanağı,
Aşiqin ürəyi, lalənin üzü,
Qara gözlü, o kəkliyin ayağı.

Nərgizlər göz açıb baxanda sənə,
İnan ki, çəkirsən dağ sinəsinə.
Bənövşələr başın salıb köksünə,
Gözəllərə sən verəndə göz dağı.

Bülbüllər tərgidər nəğmə deməyi,
Tovuz quşu vüqar ilə gəzməyi,
Bilal oğlu, özün yenə öyməyi,
Gər olmazsa məhəbbətdən dayağı.

## Gözlərin

Kəməndini alıb yenə əlinə,
Çəkir məni dardan-dara gözlərin.
Rəhm qılmır, əlin qoyub belinə,
Dönüb zalım sitəmkara gözlərin.

Kaman qaş altından süzgün baxanda,
Ürəyimə eşq süzülüb axanda,
Saçlarına güldən çələng taxanda,
Az qala qəlbimi yara gözlərin.

Yalvardım, yaxardım, baxmadın mənə,
Nə durmusan aşiqinin qəsdinə?
Öləndə gəlginən, qəbrim üstünə,
Ağlasın hər zaman qara gözlərin.

Bilal oğlu meylin sənə salanda,
Eşqin odu sinəsində qalanda,
Süzgün baxıb, kipriyini çalanda,
Heç bənzəmir xilaskara gözlərin.

## Olarmış

Mən deyim, a dostlar, dinləyin məni
Ayrılıq hər şeydən yaman olarmış.
Məşuqun eşqiylə qğlayan zaman,
Gözümün önündə duman olarmış.

Bağban gülər bağda barın dərəndə,
Aşıq sevgilisin, yarın görəndə.
İnsandan xoşbəxtlik üz döndərəndə,
Əyilib düz qəddi, kaman olarmış.

Fələyin əlindən eylərəm aman,
Qoymadı şad olam mən də bir zaman.
Əcəl yuxusunu veribdi fərman,
Car olub göz yaşım leysan olarmış.

Yaxşı nəzər yetir sən bu dünyaya,
Nə şaha qalmayır, nə də gədaya.
Bilai oğlu, şükür eylə xüdaya
Torpaqdan yaranan xarman olarmış.

## Ola bilməz

Arsız insan həqiqətdən nə qanar?
Çox yaşayar, xətti çal ola bilməz.
Dolansa dünyanı, bütün cahanı,
Yüz il keçsə, əhli-hal ola bilməz.

Həqiqət elmindən çəkilər kənar,
Ağıldan kəm mərifətdən nə qanar?
Yalan satar, məclislərdə utanar,
Mərd yanında qeylü-qal ola bilməz.

Pəhləvanlar gəldi, getdi dünyadan,
Ağalar onları çıxarmaz yaddan,
Firondan, Salsaldan, Şahdaddan,
Mini gəlsə, Rüstəm-Zal ola bilməz.

## Söz mənimkidir

Mən bir aşığam ki, el yaraşığı,
Kaman mənimkidir, saz mənimkidir.
Bağlarda bülbüləm, gül yaraşığı,
Bahar mənimkidir, yaz mənimkidir.

Azad çalıb, azad nəğmə oxuyan,
Təzə gülü dəstə tutub qoxuyan,
Qumaş alıb, əlvan xalı toxuyan,
Bacı mənimkidir, qız mənimkidir.

Xəyalım seyr edir mavi göyləri,
Günəşi, ulduzu, ayı, qəməri,
Xalqım açıb indi nurlu səhəri,
Nəğmə mənimkidir, söz mənimkidir.

Canım qurban bu dövrana, cahana,
Təmiz eşqli, təmiz qəlbli canana.
Bilaloğlu deyir, gözəl zəmanə,
Nemət mənimkidir, naz mənimkidir.

## Mənim

Görən neyləmişdim çərxi-fələyə,
Gəlmədi axırım, əzəlim mənim.
Bir kəsin başına daş atmamışam,
Anadan pak olub əməlim mənim.

Biləmədim nə bəlalı qul oldum,
Bir vaxt boynu bükük, hey məlul oldum.
Təki-tənha qəm içində boğuldum,
Kef zalımın oldu, boş zülüm mənim.

Şirvan müqəddəsdir, Şirvan uludur,
Baba yurdum övliyayla doludur,
Tutduğum yol ustadların yoludur,
Eşitsin həm doğmam, həm yadım mənim.

Yeddi arxam ilə ucadır adım,
Xəlilli nəslidir əslim, soyadım.
Atam Bilal olub mənim ustadım,
Ağalar, qoy bilsin hər elim mənim.

## Qocalanda

Cavanlıqda səxavətli olginən,
Onsuz da qalmacaq var qocalanda.
Gedəcək əlindən hər ixtiyarın,
Olacaq gözlərin kor qocalanda.

Saqqal ki, ağardı, bel də büküləcək,
Dost, tanışın səndən kənar çəkiləcək,
Çənən saxlamacaq, dişin töküləcək,
Olacaq qulağın kar qocalanda.

Mən görmüşəm qocalığın ilqarın,
Alacaq əlindən tam ixtiyarın,
Əsəcək qol-qıçın, əl-ayaqların,
Düşməcək yadına yar qocalanda.

Ağalar, atmısan cavanlıq daşın,
Əllini keçmisən, nə qalıb yaşın.
Əcəl meydanında, çaşanda başın,
Düşəcək yadına gor qocalanda.

## Gəlin

Başına döndüyüm, mehriban gəlin,
Bizlərə gələsən yazda, pis olmaz.
Kürün kənarında, Şirvan düzündə,
Sonalı göllərdə qaz da pis olmaz.

Bülbül nəğmə desin bağda gül üstə,
Şəfa versin hər mərəzə, şikəstə,
Bir lalə yanaqlı, bir boyu bəstə,
Canımı almağa qız da pis olmaz.

Şamamalar qızaranda tağında,
Gül gözəl görünər yar qucağında,
Toyda, bayramlarda, bahar çağında,
Aşığın əlində saz da pis olmaz.

Çal-oxu, dünyanın budur ləzzəti,
Neynirsən qüssəni, dərdi, möhnəti,
Bilaloğlu sevir saf məhəbbəti,
Təmiz məhəbbətdə naz da pis olmaz.

## Azəri yurdum

Dahilər yaradır Azəri yurdum,
Tükənməz sərvəti kövhər kanıdır.
Xaqani, Nizami, Füzuli, Vaqif
Şeyriyyət mülkünün Süleymanıdır.

Natəvan, Seyid Əzim, Sabir Ələkbər,
Üzeyir Hacıbəyov, Cabbarlı Cəfər,
Aşıq Bilal, bir də Aşıq Ələsgər,
Sənət dünyasının xiridarıdır.

Dolanıb keçsə də hey qərinələr,
Vurğunu unutmaz obalar, ellər.
Onun yaratdığı ölməz əsərlər,
Azad könüllərin pasibanıdır.

Ağalar, çal oxu, obada, eldə,
Mirzə İbrahimi əzbər et dildə,
Dağlar da, düzlər də, meşə də, göl də,
Şairin söz yurdu, söz məkanıdır.

## Səni

Qara torpaq məni köksünə çəksə,
Axtarar hər zaman gözlərim səni.
Üstümdən yol düşüb, karvan da keçsə,
Axtarar hər zaman gözlərim səni.

Bülbül kimi mən oxuram şikəstə,
Çoxdandır, sevgilim, yatıram xəstə.
Öləndə gəlməsən qəbrimin üstə,
Axtarar hər zaman gözlərim səni.

Eşqin mərəzindən ağrıyar başım,
Dönər sel-ümmana, axar göz yaşım.
İtsə də torpaqda məzarım, daşım,
Axtarar hər zaman gözlərim səni.

Yüz naz ilə sən sallanıb gələndə,
Pünhan eşqim öyrənəndə, biləndə.
Bilaloğlu nakam, həsrət öləndə,
Axtarar hər zaman gözlərim səni.

**Nəsihətnamə**

Bir insan ki, mərifətdən kəm ola,
Yüz nəsiyyət elə, qanası olmaz.
Könül ki, bulandı, ürək ki, sındı,
Dəvasın axtarma, çarəsi olmaz.

Dəli könlüm, məndən sənə əmanət,
Elə daniş, çəkmə ondan xəcalət.
Bir gün olar, gələr məhşər, qiyamət,
Bir kimsə dadına çatası olmaz.

İgid olan sözün aşkar söyləyər,
Haqdan qaçan haqq-divanı neyləyər?
Bir igid ki, el-obanı pisləyər,
Sərgərdan dolanar, obası olmaz.

Yaxşını yamandan həmişə ayır,
Harada ac gördün, qarnını doyur,
Yüz il yuvalarda qalan bir çayir,
Susuzluq dərdindən naləsi olmaz.

Tək əldən səs çıxmaz, ha yellə-yellə,
Min könül tikərsən bir şirin dillə,
Dağı-dağ üstünə qoyarsan ellə,
Arxasız igidin sədası olmaz.

Eşitsin sözümü huşiyar olan,
Budağı bar verməz kökündən solan,
Ağıllı, kamallı, mülayim dolan,
Şit deyib-gülməyin səfası olmaz.

Yaxşılıq elədin, gətirmə dilə,
Verərsən zəhməti puç olar yelə,
Ağalar, yazdığın bəsdir bir belə,
Sözü şox yazarsan, mənası olmaz.

## Mərd ola bilməz

Namərd adam ömr eləyə dünyada,
Yüz il keçər dönüb mərd ola bilməz.
Ac yatsa axşamlar əhli-ayalı,
Qəlbini kin tutub, dərd ola bilməz.

Mərdin olmaz namərd ilə arası,
Sağalmazdır namərdin dil yarası,
Pərvazlanar tülkü, çaqqal balası,
Cinsini dəyişib qurd ola bilməz.

Namərd adam namərdlərə yar olar,
Dosta xain çıxar, özü xar olar,
Dünyanı versələr tutub qamarlar,
İtirsə bir eli, dərd ola bilməz.

Fürsət varsa, vermə ömrünü bada,
Hörmət elə həm qohuma, həm yada,
Bilal oğlu qulluq edib ustada,
Arif məclisində pərt ola bilməz.

## Ey fələk

Oyuncaq yaratdın sən bu dünyanı,
Baş əyir qarşında cahan, ey fələk.
Atalar deyibdir: fanisən, fani,
Əlindən eylərəm aman, ey fələk.

Söndürdün neçə min gur ocaqları,
Səhraya döndərdin uca dağları.
Süsənli, sünbüllü bostan, bağları,
Elədin yer ilə yeksan, ey fələk.

Taxtdan saldın neçə şah Süleymanı,
İsgəndər mülkündən xəbər ver, hanı?
Tikdirdin Yusifə dəmir zindanı,
Mənsuru da dardan asan, ey fələk.

Üç yüz il ağlatdın həzrət Adəmi,
Zülmətə döndərdin bütün aləmi,
Səmədin əlindən saldın qələmi,
Olmadı yolunu kəsən, ey fələk.

Görüm səni yetməyəsən heç kama,
Tapşırmışam böyük qadir sübhana.
Ağalar da gəldi-getdi dünyadan,
Onu da eylədin peşman, ey fələk.

## Oyandım

***(vücudnamə)***

Yoxdan məni var edəndə ilahim,
Gör xabi-qəflətdən necə oyandım.
Keçdim atam yurdundan düşdüm anayə,
Birəng ikən min rəng ilə boyandım.

Bir aylıqla məlum deyildim hələm,
İkiaylıqda gördüm yeni bir aləm,
Haqdan gəldi mələk əlində qələm,
Dərya tək çalxanıb, sel tək bulandım.

Üçüncü ay yerim oldu bir ümman,
Dördüncü ay cismim oldu tamam qan,
Beşinci ay haqdan gəldi mənə can,
Anamın qanından içib, dolandım.

Altı ayda tamam oldu cəsədim,
Bərkidi, sümüyüm, iliyim, ətim,
Yeddi-səkkiz anam çəkdi möhnətim,
Doqquzda dünyaya düşüb yarandım.

Bir yaşımda yaxşı-yaman qanmadım,
İki yaşımda bir soltanı sanmadım,
Üç yaşımda dediyimdən dönmədim,
Dörd yaşımda həya gəldi, utandım.

Beş yaşımda, həm oynadım, həm güldüm,
Altı yaşda ədəb-kamalı bildim.
Yeddiyə çatanda məktəbə getdim,
Oxuyub hərfini, dərsimi qandım.

Səkkiz yaşda oldum məktəbli oğlan,
Doqquz yaşda qəlbim oldu bir umman.
On yaşımda gəzib dolandım hər an,
Qohumu, qardaşı, yadları andım.

On bir yaşda mən dolandım cahanı,
On iki yaşda oldum könül qurbanı.
On üç yaşda çaldım tarı, kamanı,
On dörd yaşda həya gəldi, usandım.

On beş yaşda artıq eylədim həya,
On altı yaşımda düşdüm sevdaya.
On yeddi yaşımda yetişdim payə,
Eşqin dəryasında qalıb çalxandım.

On səkkiz yaşımda beynim oldu qan,
On doqquz yaşımda gəzdim firavan.
İyirmi yaşımda alıb bir canan,
Məhəbbət uğrunda oda qalandım.

Otuz yaşda əbəs sandım sevdanı,
Qırx yaşımda zikir qıldım sübhanı.
Əlli yaşda enib bir pilləkanı,
Elə bil ki, dağ başından tullandım.

Altmışa çatanda ağardı başım,
Yetmişə çatanda töküldü dişim.
Elə ki, səksənə yetişdi yaşım,
Uşaq kimi hər bir sözə aldandım.

Doxsana çatanda titrədi dizim,
Danışdım, sözümü bilmədim özüm.
Elə ki, yüz oldu, yumuldu gözüm,
Qəbir əzabına düşüb yoxlandım.

İnkir-minkir cəm oldular yanıma,
Görcək mənim qorxu düşdü canıma,
Sığındım Allaha, haqq, “Quran”ıma,
Ol səbəbdən yüngül keçdi fərmanım.

Məhşər meydanından quş kimi uçdum,
Sirat körpüsündən çox asan keçdim,
Ağalar deyir ki, cənnətə düşdüm,
Abi – kövsərdən də içib, dolandım.

## Oğlum

Maral dağa, ceyran düzə bəzəkdi,
Dünyanın bəzəyin pozma sən, oğlum.
Nə dosta xain ol, nə də sitəmkar,
Acizi tapdayıb əzmə sən, oğlum.

Yaxşı işdən yapış, pis işdən usan.
Çatmaz heç mənzilə yolundan azan.
Atalar sözüdür: quyunu qazan,
Özü düşər, quyu qazma sən, oğlum.

Sakit ol məclisdə, həddini aşma,
Hər sözdən odlanıb, qaynayıb coşma
Arif məclisində sözünü çaşma,
Aldanma fitnəyə, azma sən, oğlum.

Sən dərs alsan əgər kamil ustaddan,
Bil, çıxarsan, hər alovdan, hər oddan.
Ağaların sözün çıxarma yaddan,
İnciyib sözündən bezmə sən, oğlum.

**Məni**

Ürəyimdə bir sağalmaz yara var,
Salıbdır qəflətən azarə məni.
Ürəyim inciyib, taleyim küsüb,
Satmağa göndərib bazarə məni.

Taqətdən düşmüşəm, qələm yazmayır,
Qanım azaldıqca yerim qızmayır,
Nəfəsim təngiyir, ürək dözməyir,
Gətirib canımdan bezarə məni.

Mən öləndə qohum-qardaş ağlasın,
Anam gəlsin, gözlərimi bağlasın.
Elim, obam üç gün matəm saxlasın,
Aparıb siz qoyun məzarə məni.

Bilaloğlu, hər yaranan öləcək,
Nə mənəmlik eylə, nə də ki, qəm çək.
Doldur badəmizi, şərab ver içək,
Həyat yetirəmməz dübarə məni.

# *QƏZƏLLƏR*

## Vətən

Mən bir vətənin övladıyam, can ona qurban
Canım da, qanım da olsun hər an ona qurban.

Süd verdi mənə körpəliyimdə anam onda
Tapşırdı məni getdi o, Soltan, ona qurban.

Bildim mən onun qədrini on yaşa çatanda,
Min sevgili canan, zulfi-pərişan ona qurban.

Gəldi neçə şahlar, neçə min taxtı-Süleyman,
Axır elədi yurdumu viran, ona qurban.

Gəzdim və dolandım mən onun hər bucağında
Sandım onu cənnət nədi, Rizvan, ona qurban.

Bilsə Ağalar can verəcək ayrı Vətəndən,
Eylər gecələr naleyi-əfqan, ona qurban.

**Sevgili canan**

Dikdim gözümü mən sənə, ey sevgili canan,
Sən eyləmədin aşiqinə dəvayi dərman.

Yıxdın məni, axır eylədin zülfün əsiri,
Yandırdı məni eşq oduna atəşi hicran.

Yalvardı könül, naz eylədin, baxmadan, ey gül,
Oldum nə qədər hüsnünə, camalına heyran.

Güldən təzədir əndamının mehri-səfası,
Oldu neçə min aşiq olan hüsnünə qurban.

Yazdı Ağalar şəninə min dürlü qəzəllər,
Ellər səni yad eyləyəcək şadi-xuraman.

## Gülüm

Bu qədər cazibə olmaz ki, bil, insanda, gülüm,
Nə ahu, nə pəridə, nə də ki, qılmanda, gülüm.

Məni heyran eyləyib incə qoxan xoş nəfəsi,
Dərdimə dərman edə bilməz, bil loğman da gülüm.

Al buxaqda olan, qönçə gülün rənginə bir bax
Nə zimistanda bitər, nə də ki, gülüstanda gülüm.

Bu gözəlliklərivün başqa əlamətləri var,
Bunu bir mən demirəm, söylənir hər yanda gülüm.

Açılıb lalə və nərgiz, döşənib qamətinə
Sanki, aləm yaranıb xallı zənəxdanda gülüm.

Ağalar qəm eləməz, gər vüsalə çata bilməz,
Böylə bir nazlı nigarla, belə dövranda gülüm.

## Qocalıq

Yeməyə, içməyə süfrəmdə nanım da vardır,
Dəhridə ad-sanım, şövkəti-şanım da vardır,
Cəsədimdə nəfəsim, həm də ki, qanım vardır.

Qoymusan sən məni yoldan, qocalıq,
Salmısan lap məni haldan, qocalıq.

İstəsəm at da minib mən çıxaram meydana,
Özümü oxşadaram tazə cavan oğlana.
Mümkün olsa, gedərəm dərman üçün loğmana.

Qoymusan sən məni yoldan, qocalıq,
Salmısan lap məni haldan, qocalıq.

Ağalaram, bilsən, mən də səni pislərəm,
Nə qədər var nəfəsim, lənətimi kəsmərəm,
Nə də qarşında durub, boynu bükük əsmərəm.

Qoymusan sən məni yoldan, qocalıq,
Salmısan lap məni haldan, qocalıq.

## Könül

Nə qədər qüssə yedi, çatmadı canana könül,
Qoydu həsrət gül üzü, qəmzəsi al qana könül.

Qəmi hicranına yandım gecələr sübhə kimi,
Dolanıb şəm başına gör necə pərvanə könül?

Eşqin avarəsiyəm, Leyli tək rəhm eləməz,
Etdi Məcnun kimi axır məni divanə könül.

Vermərəm könlümü mən heç yadlara bundan sonra,
Bivəfa olmayacaq eşqə və peymanə könül.

Çala Həsrət balaban, seygaha bərdəş götürə,
Ola aludə tamam, məclisi toyxana, könül.

Verərəm min ili mən bir gecə meyxanələrə,
Ola yarım o gecə, sahibi meyxanə, könül.

Bilal oğlu, gözəlin ağı, qarası şərt deyil,
Çək onu imtahana, uyma zənaxdana, könül!

## Maralı

Yenə göz gördü, könül sevdi sənin tək maralı,
Gah gəlirsən yaxına, gah da gəzirsən aralı.

Atduğun müjgan oxu sinəmi nişan eylədi,
Qana dönmüş könlümü neyçün edirsən yaralı.

İzin ver, qoy dolanım şəminə pərvanə kimi,
Baxdıqca gözlərinə, heyva tək rəngim saralı.

Dəli ceyranə misal eyləmişəm gözlərüvü,
Hər dönüb baxmağın avarə edibdir maralı.

Ya danışma mən ilə, rədd cavabın söylə mənə,
Ya denən, aşıq, usan, sən haralı, mən haralı.

Ağalar da sənin eşqindən usandı bu gecə,
Qalmadı səbrim, ay ellər, görmədikcə maralı.

## Gözəlim

Ey gözüm nuri, dilim əzbəri sənsən, gözəlim,
Könlümü kan eyləyən neşdəri sənsən, gözəlim.

Hər baxanda mənə sən ruh verirsən canıma,
Elə bil ki, yaradan əlləri sənsən, gözəlim.

Mən sənin eşqin ucundan saralıb solmadayam,
Qəlbimin şölə saçan günləri sənsən, gözəlim.

Dözə bilməm bu qədər ayrılığa Adəm tək,
Adəmin Həvva kimi dilbəri sənsən, gözəlim.

Nə qədər səbr edirəm eşqin odu sinəmdə,
Qanə dönmüş ürəyim pərgari sənsən, gözəlim.

Parə-parə elədin sən Ağaların dilini
Bu dilə yarə vuran xəncəri sənsən, gözəlim.

## Elədim

Bir zaman mən də sənə eşqimi bəyan elədim,
İtirib huşumu öz əqlimi nadan elədim.

İndi müşgüldür mənə ayrılıq aləmdə yaman,
Bəlkə də öz sevgimi mən sənə dərman elədim.

Doğrudur, tək deyiləm hüsnünə aludə olan,
Kəsərək qəlbimi mən, bağrımı al qan elədim.

Bilmirəm çarə nədir, eşqin əlindən qaçıram,
Onda da mən bilirəm, qətlimə fərman elədim.

Ağladım, baxmadın heç gözdən axan qan yaşıma,
Ağalar, gözlərimi gör necə giryan elədim.

## Sənsiz

Söylə, ey gül, nə qədər odlara yanım sənsiz?
Çıxsın əflakə qədər nalə-fəğanım sənsiz.

Səni gördükdə mənim cuşa gəlir ilhamım,
Görməyəndə kəsilir tabi-tavanım sənsiz.

Söyləmək istədim dərdimi, səndən savayı,
Kimsəyə söyləmədi sirri - dəhanım sənsiz.

Bir canım var, onu da mən sənə qurban elədim,
Kimə lazımdı axı, sağ qala canım sənsiz?

Min təbib gəlsə əgər eşq oduna dərmanə,
Bir əlac olmayacaq, yoxdu gümanım sənsiz.

Səcdə qıl, sən Ağalar, ol gülü-rənayə dəxi,
Yanacaq hicr ilə şövkəti-şanım sənsiz.

# MÜNDƏRİCAT

Ön söz ........................................................ 3

***Gəraylılar*** ............................................... 15
Belə gəldi ................................................... 15
Gözlərin ..................................................... 16
Baxan Gülgəz ............................................. 17
Naza qoydu ................................................ 18
Gərəkdir .................................................... 19
Gözəl ......................................................... 20
Sevdasına ................................................... 21
Gələn gözəl ................................................ 22
Göz görəndə ............................................... 23
Sata-sata .................................................... 24
Gərəkdir .................................................... 25
Gözəl ......................................................... 26
Könül quşu ................................................. 27
Dözəm gərək .............................................. 28
Daha .......................................................... 29
Bağ içində .................................................. 30
Gəl ............................................................ 31
Hanı dünya? ............................................... 32
Oğul .......................................................... 33

***Bayatılar***................................................ 34
Lay-Lay ................................................ 35

***Qoşmalar*** ................................ 37
Səni ...................................................... 38
Çəkə bilməz ............................................ 39
Ay dostlar ............................................... 40
Görmüşəm .............................................. 41
Olmasın .................................................. 42
Qaça bilmədim ........................................ 43
Başın qurtar ............................................ 44
Olasan gərək ........................................... 45
Döndərdi ................................................ 46
Görmədin ................................................ 47
Nanəcim arvad ........................................ 48
Biləydin barı ........................................... 49
Gərəkdir .................................................. 50
Düşdü .................................................... 51
Hərbə-zorba ............................................ 52
Dönübdür ................................................ 53
Şirindir ................................................... 54
Gözəldi ................................................... 55
Gözəllər .................................................. 56
Gələcək ................................................... 57
Yar mənim .............................................. 58
Sevgilim ................................................. 60
Diyara düşdü ........................................... 61
Məhəbbətin dayağı ................................. 62

Gözlərin .................................................... 63
Olarmış ..................................................... 64
Ola bilməz ................................................. 65
Söz mənimkidir ......................................... 66
Mənim ....................................................... 67
Qocalanda ................................................. 68
Gəlin ......................................................... 69
Azəri yurdum ........................................... 70
Səni ........................................................... 71
Nəsihətnamə ............................................. 72
Mərd ola bilməz ........................................ 74
Ey fələk .................................................... 75
Oyandım ................................................... 76
Oğlum ....................................................... 79
Məni .......................................................... 80

***Qəzəllər*** ................................................ 81
Vətən ......................................................... 81
Sevgili canan ............................................. 82
Gülüm ....................................................... 83
Qocalıq ..................................................... 84
Könül ........................................................ 85
Maralı ....................................................... 86
Gözəlim .................................................... 87
Elədim ...................................................... 88
Sənsiz ....................................................... 89

Kompyuter tərtibatı:
Aliyə Qabilqızı

Korrektor:
Gülzar İbrahimqızı